## Gözlərimi düymələyir saçlarının qoxusu...

***

Nə vaxt səni görsəm
qəlbimdə bir təəssüf əyləşir mənim yerimə.
Mənim yerimə həmin təəssüf baxır sənə,
çayı həmin təəssüf süzür ikimizə də.
Səni görəndə anlayıram ki,
çoxdandır insan nəfəsi dəyməyən evdir könlüm.
Gözlərimi düymələyir saçlarının qoxusu,
səni düşündüyüm gecələrin yuxuları, -
cəllad yuxusu
Huşum bulanır başımda
günahlarım kəndir yağlayır,
kətil çəkir yaddaşımda.
Aşiq olduğum günü soruşma məndən,
bilmirəm haçan başladı hər şey,
bəlkə, təsadüf köynəyinin yaxasından
çıxmışı hər ikimiz.
Daha şübhə
və tərəddüdlər arasında itib həqiqi tarixçəmiz.
Sevərkən sənin günahların da mənə yazılırdı:
sən ələ düşəndə, məni əsir aparırdılar,
səni unudanlar məni də xatırlamırdılar.
Qəlbimdə sənin doğulduğun günün əbədiyyətidi,
könlüm keçmişini vərəqləmir ki,
orda daim pak qalasan, -
korlanmayasan,
aldatmayasan,
aldanmayasan.
Ovcundan öpdüm ki,
yumruğuna yığılan qəzəbin tozu alınsan,
gözlərindən öpdüm ki,
dünyaya zillənmiş ağrılarının
qapaqları bağlansın.
Sən mənim yox yerdən var olan
məhəbbət ruzimsən,
məni hamı kimi olmağa
yubandıran arzumsan.

## Hazırcavab təqvim

Can verən bir təqvim var masamın üstə,
sonuncu yarpağını sirkələyir ilin küləyi.
Bu təqvim daş tərəzidi:
bir gözündə gələcəyi çəkir,
o biri gözündə ötən günləri.
Bu təqvimin aylarına ağlamaqdan doymuş
bir adamın səsi hopub,
əlamətdar günləri
yadların təsəllisiyləqırmızılanıb.
Beləcə adlamaqdadı bu ilim.
Ürəyilə danışa-danışa
mənasız bir hazırcavaba dönüb bu təqvim.
Qoy dişi ağrıyan uşaq
bu təqvimə bir sap bağlasın,
çıxarsın canındakı ağrını,



Qoy bir qəhrəman alsın
ötən günlərin əlindən
xatirələrin ağ bayrağını.
Mənsə daha xoşbəxt bir günün
yatmış saatında qalım.
Elə səslə çağırsın ki məni gələcək,
qəfildən adımın gözəlliyinin fərqinə varım.

## Rəqabət cədvəli

Qəlbim dəyişib libasını,
daha başqa rəqabət cədvəlləri tutub,
sakitliyim bir körpüdür,
qəzəb çayından keçirir məni.
Özümə mənasız suallar vermirəm daha,
soruşmuram:
"O, ev paltarında da belə gözəldimi,
ya da səhər tezdən oyananda?"
Qəlbin tox vaxtı sevdiyinə bənzər
insanlar da çıxmaz rastına...
Tərəddüdlər tərk edib məni,
insafla insafsızlıq arasında vıyıldamır
küləyim...
Qəfəsə bülbülün
xatirəsini danışır ürəyim...
Qaraçılar sayaq sabah yüz adama görə
oyanmaqçün can atmıram yuxuya...
Çöldəki qara
və yaxınlaşan bahara baxıb
qabımdakı duz
"üstümə su calansın" deyə
dua eləmir Yaradana...

**Fərid Hüseyn**

Türküstan.- 2020.- 15-21 dekabr. S. 22.